# Bütün uğurlarımızı ədalət və ləyaqətimiz təmin edir



**Ölkəmizin dövlət müstəqilliyini gözü götürməyənlər, türk-dilli xalqların bədxahları və erməni lobbisinin əsarəti altında fəaliyyət göstərən qüvvələr bizi otuz il dünyaya "məğlub xalq" kimi təqdim etməyə çalışdılar. Amma sındıra bilmədilər. Biz həmin otuz ildə heç bir qalib xalqın ortaya qoya bilməyəcəyi uğurlara imza atdıq. Çünki dövlətimiz ədalətli, xalqımız isə ləyaqətlidir.**

## *Yaxud, ermənilər üçün beş əsrə bərabər beş ay*

Biz erməniləri cəmi beş aydır ki, dünyaya məğlub xalq kimi təqdim etmişik. Bu beş ayda beş əsrin əzab-əziyyətini çəkirlər. Əyildilər, sarsıldılar, məhv oldular, ölkəni tərk edənlərin sayı saatbasaat artmağa başladı. Siyasi didişmələr, dövlətlə hərbçilərin qarşıdurması, lobbiçilərin çaşqınlığı, diaspor təşkilatlarının parçalanması, özəl sektorun dövlətlə əməkdaşlıqdan imtina etməsi, himayədarların tərəddüd içərisində çapalaması məğlub erməniləri, sözün həqiqi mənasında, sındırdı, Ermənistan dövlətini isə çökdürdü. Çünki həm xalq kimi, həm də dövlət kimi buna layiqdirlər, ləyaqətsizdirlər.

Erməni havadarları bizi "məğlub edəndə" ona görə sınmadıq ki, arxa-sınca gedə biləcək liderimiz var idi. Biz Heydər Əliyevin arxasınca getdik.

**(ardı 2-ci səhifədə)**

# Bütün uğurlarımızı ədalət və ləyaqətimiz təmin edir

*(əvvəli 1-ci səhifədə)*

Özünü dünyaya "sivil xalq" kimi təqdim etməyi bacarmış işğalçı və terrorçular isə lider tapa bilmədiklərinə görə rəzil oldular. Biz dünyaya "məğlub xalq" kimi təqdim ediləndə, ona görə heç kəs ölkəni tərk etmədi ki, bura bizim öz Vətənimizdir. Bunu məktəbəqədər təhsil müəssisələrinə gedən körpələrimiz də bilirlər. Ermənilər isə ona görə dərhal xaricə köçməyə başladılar ki, özgə torpaqlarında yaşadıqlarını istənilən erməni əl barmaqlarının sayı kimi bilirdi. Biz "məğlub xalq" olanda dünyanın ən islahatçı ölkəsi kimi tanınmışdıq. Ermənistanda isə indi – zəlil olduqları dörd-beş ayda islahatdan danışmağa başlayıblar. Guya sıfır səviyyəsinə düşmüş iqtisadiyyatı islahatlarla dirçəldəcəklər.

Biz dünyaya "məğlub xalq" kimi təqdim edildiyimiz illərdə (o zaman ki, Minsk qrupu həmsədrləri də daxil olmaqla, bir çoxları bizə deyirdilər ki, mövcud reallıqla – yəni məğlubiyyətlə barışın) ölkəmizin dünyanın "kosmik ailəsi"nə qəbul edilməsinə nail olmuşduq. Ermənilər isə kapitulyasiya aktına imza atandan sonra öz məğlubiyyətlərini məhz bizim kosmosdakı rabitə peyklərimizlə əlaqələndirməyə çalışdılar ki, guya, biz onların bütün silahlarının hərəkət trayektoriyasını kosmosdan izləmişik.

Biz "məğlub xalq" olanda Avropanın enerji təhlükəsizliyinin təminatçısına çevrilmiş çoxsaylı layihələri icra etmişik. Ermənistanın baş naziri isə məğlubiyyətdən beş ay keçəndən sonra deyir ki, Azərbaycanın Zəngəzur dəhlizini açması bizim də Naxçıvan dəhlizini açmağımızla nəticələnəcək və "təbii sərvətlərimizi" (pahooo!) məhz həmin dəhlizlə dünya bazarlarına çıxaracağıq. Həmin baş nazir bir ay əvvəl isə jurnalistlərə demişdi ki, pomidor əkib satmaqla iqtisadiyyatı dirçəltmək olmaz.

Biz "məğlub xalq" elan edildiyimiz illərdə daha nələrə , hansı uğurlara imza atmamışıq? Yeni Azərbaycan Partiyasını yaratmışıq. Dünyanın bütün ermənilərinin düşmən kimi qəbul etdikləri Heydər Əliyevin siyasi hakimiyyətə qayıtmasını təmin etmişik. İşğalçı, terrorçu, başkəsən, leşyeyən ermənilərin himayədarlarına güvənərək davam etdirdikləri hərbi əməliyyatların dayandırılması üçün atəşkəs elan edilməsinə nail olmuşuq, Xəzərin karbohidrogen ehtiyatlarının birgə işlənilməsi üçün "Əsrin müqaviləsi" adlı nəhəng kontrakt imzalamışıq. Həmin müqavilə əsasında hasil ediləcək qaz və neft ixrac kəmərlərinin Ermənistandan yan keçməsinə nail olmuşuq. Məhz bu siyasətlə də Ermənistan dalana dirənib.

Biz həmin illərdə Bakıda "Avroviziya" mahnı müsabiqəsinin və Birinci Avropa Oyunlarının keçirilməsini təmin etmişik. BMT, UNESCO, İSESKO, İslam Əməkdaşlıq Təşkilatı, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, Qoşulmama Hərəkatı və digər beynəlxalq təşkilatların qlobal əhəmiyyətli tədbirlərinə evsahibliyi etmişik. Xüsusən, 2008-ci ildən start götürən "Bakı prosesi" adlı beynəlxalq tədbirdə Avropa və Asiya sivilizasiyalarının bur masa ətrafında oturmasına nail olmuşuq. Bundan başqa, Rusiya və ABŞ-ın, sonra isə Rusiya və NATO-nun yüksək səviyyəli hərbçiləri bir neçə məsələni müzakirə etmək üçün məhz Bakını seçiblər.

Bəs həmin illərdə özünü "qalib xalq" adlandıran ermənilər nə ediblər? Həmin otuz ildə bir dəfə İrəvanda beynəlxalq tədbir keçirdilər, orada da əvvəlcə bir ölkənin prezudenti ilə digər ölkənin baş nazirinin qalmaqalı düşdü, sonra isə bu qalmaqala dəxli olmayan iki ölkənin səfirləri dalaşdılar. Çünki həmin beynəlxalq tədbirin təşkilatçıları ləyaqətsiz və ədalətsiz idilər.

Ermənilərin həmin "yek" tədbirdən başqa son otuz ildəki bütün fəaliyyətləri işğal edilmiş Azərbaycan ərazilərini əvvəlcə qarət və talan etməkdən, sonra isə daşı-divarı da dağıdaraq, ucsuz-bucaqsız xarabalıqlar törətməkdən ibarət olub. Çünki onlar şərəfsiz və ləyaqətsizdirlər.

Fikrimizcə, Prezident İlham Əliyevin Yeni Azərbbaycan Partiyasının VII qurultayındakı nitqindən gətirdiyimiz iqtibas da bu həqiqətlər haqqında daha müfəssəl təəssürat yaradır: " Mən son 17 il ərzində münaqişə ilə bağlı bütün çıxışlarımda deyirdim ki, heç vaxt Azərbaycan xalqı bu işğalla barışmayacaq. Heç vaxt Azərbaycan imkan verməyəcək ki, tarixi, əzəli torpaqlarında ikinci erməni dövləti yaradılsın. Heç vaxt bizi tam qane etməyən razılaşma ilə barışmayacağıq və müharibədən əvvəl müxtəlif çıxışlarda, müsahibələrdə deyirdim ki, bizə hansısa yarımçıq sülh müqaviləsi lazım deyil. Biz ərazi bütövlüyümüzü tam bərpa etməliyik. Biz tarixi ədaləti tam bərpa etməliyik. Çünki yarımçıq razılaşma bizim xalqımızın maraqlarına cavab vermirdi, tarixi ədalətə cavab vermirdi. Yarımçıq razılaşma istər-istəməz gələcəkdə müharibə risklərini artıra bilərdi. Bizə isə tam, mütləq qələbə lazım idi. Biz bu mütləq qələbəni qazandıq, düşməni darmadağın etdik, düşmən ordusunu məhv etdik və istədiyimizə nail olduq."

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***

Xalq qəzeti 2021.- 23 aprel.- S.1;2.